# XIZI DAĞ ÇÖLLƏRİNİN QIŞ ORNİTOFAUNASININ TƏRKİBİ

**Əhmədli A.A.**

*Bakı Dövlət Universiteti*
*aqil.ahmedli99@gmail.com*

Tədqiqatlar Xızının dağ çöllərində 2020-2021-ci illərin dekabr, yanvar və fevral aylarında aparılmışdır. Müşahidələr aparılmış, növləri təyin etmək üçün optik cihazdan (10x40), Canon SX70 fotoaparatı ilə çəkilmiş foto şəkillərdən və illustrativ təyinedici kitablardan (Lars Jonson, 1996) istifadə edilmişdir. Quşların növ tərkibini öyrənmək üçün marşrut və stasionar müşahidə metodlar tətbiq edilmişdir. Quş növlərinin təyini üçün "Collins Bird Guide" təyinat kitabından istifadə edilmişdir. Quşların müşahidəsi üçün 10x42 ölçülü binokldan istifadə edilmişdir. Bu halda quş növlərinin müəyyənləşdirilməsi üçün 150-200 m və mümkün olarsa daha uzun məsafə seçilmişdir. Açıq ərazidə binokldan istifadə edilərək quş növlərinin müəyyənləşdirilmə məsafəsi 150-200 m-ə qədər idi.

2020-2021-ci illərin qış mövsümündə apardığımız tədqiqatlar zamanı qışlamada Sərçəkimilər (*Passeriformes*), Qızılquşkimilər (*Falconiformes*), Qutankimilər (*Pelecaniformes*) və Qazkimilər (*Anseriformes*) dəstəsinə aid olan növlər qeydə alınmışdır.

Qızılquşkimilərdən *Aegypius monachus, Gyps fulvus, Falco peregrinus, Falco tinnunculus* qeydə alınmışdır. Qeydə alınan yırtıcı quşlar arasında *Aegypius monachus, Gyps fulvus, Falco tinnunculus* adi, *Falco peregrinus* isə azsaylı idi. Xızının dağ çölləri qış otlaqları kimi istifadə olunduğundan burada qış aylarında çox sayda qoyun sürüləri otarılır. Kərkəslər üzərində aparılan müşahidələr zamanı məlum olmuşdur ki, müəyyən ərazilərdə kərkəslərin sayının çox olması orada qoyun sürülərinin cəmləşməsi ilə əlaqədardır.

Sərçəkimilərdən *Sturnus vulgaris, Melanocorypha calandra, Emberiza calandra, Linaria flavirostris* növləri çoxsaylı idi. *Linaria flavirostris* dəniz səviyyəsindən 2000 m-dən hündür subalp və alp qurşaqlarda yayılan oturaq növdür. Qış aylarında şaquli miqrasiya edərək dəniz səviyyəsindən 300-400 m yüksəkliklərdə yerləşən Xızının dağ çöllərində müşahidə olunur. Xızının dağ çöllərində *Linaria flavirostris* 40 fərddən ibarət dəstəsi qeydə alınmışdır.

Qutankimilər dəstəsindən iri qarabatdağın (*Phalacrocorax carbo*) 130 fərdi və qıvrımlələk qutanın (*Pelecanus crispus*) 4 fərdi qeydə alınmışdır.

Qazkimilər dəstəsindən qırmızı ördək və ya anqut (*Tadorna ferruginea*) və yaşılbaş ördək (*Anas platyrhynchos*) cəmi 1 dəfə qeydə alınıb.